# Ən nüfuzlu siyasi qüvvə

**Azərbaycan xalqının iradəsini təmsil edən Yeni Azərbaycan Partiyasının yaranmasından 29 il ötür. Bu, bir həqiqətdir ki, Yeni Azərbaycan Partiyası (YAP) ötən əsrin 80-ci illərinin sonu - 90-cı illərin əvvəllərində ölkəmizdə meydana çıxan mürəkkəb siyasi vəziyyətin, zamanın təxirəsalınmaz tələbindən irəli gələrək Azərbaycan xalqının arzu və istəklərinin ifadəçisi kimi yaranan partiyadır.**

Həmin dövrdə xaos və qeyri-sabitliyin hökm sürdüyü Azərbaycanın düçar ola biləcəyi daha böyük fəlakətlərin qarşısını almaq, məhv olmaq təhlükəsi ilə qarşı-qarşıya olan müstəqil dövlətimizi bütün təhlükələrdən xilas etmək məqsədilə xalqımızın milli maraqlar ətrafında birləşmiş sağlam qüvvələri, o cümlədən ziyalılar ulu öndər Heydər Əliyevə müraciət etdi. 1992-ci il oktyabrın 16-da 91 nəfər ziyalının imzaladığı müraciətdə deyilirdi: "Dövlət quruculuğundakı çoxillik təcrübənizə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütlələrini özündə birləşdirə biləcək böyük, güclü, nüfuzlu və işlək partiya yarada bilərsiniz. Öz adımızdan və on minlərlə respublika vətəndaşı adından Sizdən xahiş edirik ki, təşəkkül tapan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir".

Ulu Öndər ona ünvanlanan bu müraciətə cavab olaraq ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi: "Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğur".

Xalqımızın dahi oğlu, dövlət xadimi ulu öndər Heydər Əliyev o dövrdə blokada şəraitində olan Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə sədrlik edirdi. Heydər Əliyev xalqın müraciətini qəbul etsə də, onun Bakıya gəlməsinə o zamankı hakimiyyətdə olanların maneələr yaratması ucbatından partiyanı yaratmaq istəyən insanların bir hissəsi - 550 nəfərdən ibarət təşəbbüs qrupu Naxçıvana gedərək partiyanın təsis konfransını orada keçirməyə müvəffəq oldular. Azərbaycanın bütün regionlarından seçilmiş nümayəndələrin təmsil olunduğu konfrans 1992-ci il noyabrın 21-də Heydər Əliyevin sədrliyi ilə keçirildi, Təsis Konfransı Yeni Azərbaycan Partiyasının yaradılması haqqında qərar, partiyanın Proqram və Nizamnaməsini qəbul etdi. Konfransda Heydər Əliyev yekdilliklə partiyanın sədri seçildi.

Ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi və arzusu ilə hakimiyyətə qayıdışı yeni, müasir Azərbaycanın qurulmasını şərtləndirdi. O, uğurlu, düşünülmüş və məqsədyönlü siyasəti ilə Azərbaycanı yenidən sürətli inkişaf yoluna çıxardı. Azərbaycanın dünyaya günəş kimi doğacağını bir hədəf kimi qarşıya qoyan ulu öndər Heydər Əliyev çox qısa zamanda bu məqsədə nail oldu. Sabitliyin, əmin-amanlığın yaradılması ölkənin enerji resurslarından səmərəli istifadəyə yol açdı. Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış 1993-2003-cü illər ölkəmizin dirçəlişi, tərəqqisi dövrü kimi xarakterizə olunur. Xaosdan, anarxiyadan, özbaşınalıqdan, iqtisadi böhrandan xilas olan Azərbaycan bütün çətin anları geridə qoyaraq inkişaf yoluna qədəm qoydu. İqtisadi sahədə yaşanan tənəzzül aradan qaldırıldı, siyasi proseslər müsbət məcrada inkişaf etməyə başladı. Ölkəmizdə siyasi plüralizm, demokratiya, söz və fikir azadlığı bərqərar oldu, çoxpartiyalı sistem təşəkkül tapdı. Bu sistemin yaradılmasında Yeni Azərbaycan Partiyasının rolu danılmazdır. Bu fikir dövlət başçısı İlham Əliyevin çıxışlarında da hər zaman önə çəkilir ki, Yeni Azərbaycan Partiyası öz mövqeyini və gücünü başqa partiyaları zəiflətməklə yox, öz fəaliyyəti ilə təmin etmişdir. Yeni Azərbaycan Partiyası bu gün Azərbaycan cəmiyyətinin bütün təbəqələrini birləşdirən partiyadır və hər sahədə əldə olunmuş möhtəşəm uğurlarda partiyanın rolu danılmazdır.

Ümummilli lider Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyası qısa bir zaman ərzində xalqımızın etimadını qazanaraq ən mütərəqqi ziyalıları ətrafında birləşdirdi. Partiya tez bir zamanda ölkəmizin rayonlarında öz qərargahlarını yaradaraq bölgə əhalisinin taleyüklü problemlərinin həllində əsas rol oynamağa başladı. Partiya liderinin vətənpərvərliyi, təəssübkeşliyi, məntiqi mühakimə aparmaq bacarığı, qayğıkeşliyi nəticəsində xalqımız liderinin ətrafında sıx monolit qüvvə kimi toplaşmağa başladı. Azərbaycan xalqı liderinin nəyə, hansı qüdrətə malik olduğunu anladı.

Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə təşəkkül tapan Partiya qısa müddətdə Azərbaycan dövlətinin siyasi, iqtisadi və sosial simasını dəyişərək ona yeni inkişaf modeli gətirdi. Digər tərəfdən, bu partiyanın ən böyük xidmətlərindən biri xalqın mənəvi gücünü səfərbər etmək oldu. Yeni Azərbaycan Partiyası ulu öndərin azərbaycançılıq ideologiyası, demokratiya prinsiplərinə sadiqliyi və siyasətdə liberalizmi özünün əsas fəaliyyət istiqamətlərindən biri kimi müəyyənləşdirdi. YAP yarandığı ilk gündən mürəkkəb ictimai-siyasi prosesləri dəqiq qiymətləndirən, siyasi hadisələri elmi-siyasi proqnozlarla dəyərləndirən bir siyasi təşkilat kimi fəaliyyətə başladı. Xüsusən bu aparıcı siyasi qüvvənin yaranması ilə demokratiya, azadlıq, müstəqillik kimi mühüm amillər ölkəmizdə öz təcəssümünü tapdı. Xalqımız siyasi mübarizənin sivil, demokratik yollarını və vəzifələrini aydın şəkildə müəyyənləşdirmək imkanı qazandı.

Müstəqil Azərbaycanın keçdiyi inkişaf yolunun bələdçisi olan YAP dövlətə, xalqa xidməti fəaliyyətinin əsas prinsipi kimi qəbul edərək cəmiyyətdə nüfuzunu daha da artırır, sıralarını kəmiyyət və keyfiyyət baxımından zənginləşdirir. Azərbaycanın siyasi mənzərəsinə yeni ab-hava gətirən partiyanın sıralarının getdikcə genişlənməsi xalqımızın Heydər Əliyev ideyalarına sadiqliyinin və Prezident İlham Əliyevin siyasətini dəstəkləməsinin bariz göstəricisidir. Ulu öndər Heydər Əliyevə xalqın böyük inamı nəticəsində partiya qısa müddətdə təşkilatlandı və ölkəmizin ən nüfuzlu siyasi qüvvəsinə çevrildi.

Yeni Azərbaycan yeni-yeni hədəflərə çatmaq üçün ciddi səylər göstərir. Demokratik cəmiyyətin mövcudluğunu təsdiqləyən əsas göstəricilərdən biri məhz ölkədə seçkilərin azad, şəffaf və dünya standartlarına uyğun keçirilməsidir. 1995-ci ildə Milli Konstitusiyamızın qəbulundan ötən dövr ərzində ölkəmizdə keçirilən prezident, parlament və bələdiyyə seçkilərində, ümumxalq səsverməsilə Yeni Azərbaycan Partiyasının böyük qələbələr qazanması xalqın ona inamının, dəstəyinin göstəricisidir.

Ümummilli lider Heydər Əliyevin zəngin irsindən güc alan Yeni Azərbaycan Partiyası öz siyasi dəst-xəttinə daim sadiq qalaraq Azərbaycan Prezidenti cənab İlham Əliyevin ətrafında daha da sıx birləşərək mütəşəkkil siyasi qüvvə kimi Azərbaycanın çiçəklənməsinə yeni-yeni töhfələr verəcək. Partiyamızın sədri Prezident İlham Əliyevin vurğuladığı kimi, Yeni Azərbaycan Partiyası nəinki Azərbaycanda, bütövlükdə Cənubi Qafqaz regionunda ən böyük siyasi qüvvədir.

Ümumxalq partiyası olan YAP ötən 29 il ərzində Azərbaycan xalqının maraqlarının ifadəçisi, dövlətimizin inkişafına xidmət edən siyasətin hərəkətverici qüvvəsi olub. Bu gün Prezident İlham Əliyevin rəhbərlik etdiyi YAP ölkə daxilində alternativsiz ictimai-siyasi təşkilat, eləcə də siyasi sistemin lokomotiv gücü kimi çıxış edir, Azərbaycanın inkişafına layiqli töhfələr verir, öz fəaliyyətində xalqın ali mənafeyini və dövlətçilik maraqlarını əsas tutur. Bütün bunlar deməyə əsas verir ki, xalqın partiyası olan Yeni Azərbaycan Partiyası bundan sonra da öz fəaliyyətini uğurla davam etdirəcək, xalqın dəstəyi ilə növbəti qələbələr qazanaraq yeni zirvələrə imza atacaq.

Partiyanın cəmiyyətin inkişafına yönəlmiş çoxsaylı sosial layihələr reallaşdırması, gəncləri dövlətçilik və milli maraqlar ətrafında sıx birləşdirməsi onun üzvlərinin sayının artmasına səbəb olub. Bu gün ölkədə ən kütləvi və mütəşəkkil siyasi qüvvə olan YAP öz sıralarında 760 mindən artıq üzvü birləşdirir. Bu, ölkə vətəndaşlarının Azərbaycan reallığına verdiyi qiymət və Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasətə inamın bariz ifadəsidir.

Ətrafında ictimaiyyətin bütün təbəqələrini birləşdirən Yeni Azərbaycan Partiyası ümummilli lider Heydər Əliyevin parlaq ideyalarının daşıyıcısı kimi cəmiyyətdə öz aparıcı rolunu gündən-günə yüksəldir və daha da möhkəmləndirir. Bu gün Yeni Azərbaycan Partiyasının qarşısında duran əsas vəzifələrdən biri və ən başlıcası ümummilli lider Heydər Əliyevin qurduğu müstəqil Azərbaycanı daha da inkişaf etdirmək, dünyanın aparıcı dövlətləri sırasında öz yerini və mövqeyini qoruyub saxlamaqdır.

**Əli SADIQOV,**
**"Respublika".**

Respublika .- 2021.- 20 noyabr.- S.8.